**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA ƏQLİ KEYFİYYƏTLƏRİN FORMALAŞMASININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**İxtisas:** 6104.01 – "Pedaqoji psixologiya"

**Elm sahəsi:** Psixologiya

**İddiaçı: Günay Fəzail qızı Agamalı**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFRATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Psixologiya elmləri doktoru, professor
**Ərəstun Təriş oğlu Baxşəliyev**

**Rəsmi opponentlər:** Psixologiya elmləri doktoru, professor
**Səməd İsmayıl oğlu Seyidov**

Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**İranə Məhəmməd qızı Məmmədli**

Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Kamalə Bahazar qızı Salamova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurası

Dissertasiya Şurasının sədri: Psixologiya elmləri doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**

Dissertasiya Şurasının elmi katibi: Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Müşviq Hüseyn oğlu Mustafayev**

Elmi seminarın sədri: Psixologiya elmləri doktoru, professor
**Rəşid Vəkil oğlu Cabbarov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Müasir şəraitdə təfəkkür və yaradıcı keyfiyyətlərin öyrənilməsi bir sıra elmlərin mərkəzi problemlərindən biridir və olduqca aktualdır. Əqli keyfiyyətlərin inkişafı insanın şəxsi fərdi xüsusiyyətlərindən asılıdır. Bu baxımdan müasir dövrdə məktəbəqədər yaşlı uşaqların tərbiyəli, ağıllı, zəkalı, hərtərəfli inkişaf edib formalaşması dövlət əhəmiyyətli bir problem kimi qarşıda durur.

Məktəbəqədər yaşlı uşaqların bir şəxsiyyət kimi formalaşması bu günün tələbidir. Azərbaycan Respublikasının təhsil qanununda təhsilin, tərbiyənin ən çox əqli düşüncəyə, yeni pedaqoji təfəkkürə əsaslanması xüsusi ilə qeyd olunur. Bu mənada məktəbəqədər yaş dövrü formalaşan şəxsiyyətə bir çox lazımi keyfiyyətlərin aşılanmasında mühüm mərhələni təşkil edir. Bu səbəbdən məktəbəqədər müəssisələr birinci olaraq həmin mərhələnin lazımi imkanlarından səmərəli şəkildə istifadə etməyin qayğısına qalmalıdırlar.

Müasir dövrdə respublikamızda məktəbəqədər yaşlı uşaqların əqli keyfiyyətlərin inkişaf xüsusiyyətlərinin araşdırılması və bu cəhətdən tərbiyəçilərə, valideynlərə yardım göstərilməsi bir neçə cəhətdən aktuallıq kəsb edir.

**Birincisi,** XX və XXI əsrin ilk on illiyində Azərbaycan psixoloji fikir tarixində məktəbəqədər yaşlı uşaqların psixoloji xüsusiyyətlərinin nisbətən az öyrənilməsi və bu sahəyə zəruri ehtiyyacın olması.

**İkincisi,** qloballaşmanın vüsət aldığı bir dövrdə ağıla, yüksək intellektə, biliyə, düşüncə tərzinə malik olan uşaq və yeniyetmələrə böyük ehtiyac var. Bu baxımdan, məktəbəqədər yaşlı uşaqlarda təfəkkür keyfiyyətlərinin təşəkkülünün, inkişaf və tərbiyəsini, xarakterini və səviyyələrini tədqiq etmək onların şəxsiyyətinin formalaşmasında təfəkkür amilinin mühüm istiqamətləri ilə yanaşı onlarda bir çox mənəvi-psixoloji key-

fiyyətlərin aşılanması imkanlarını və mexanizmlərini müəyyən etməyə bu tədqiqat əsaslı şərait yaradır.

**Üçüncüsü,** məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin inkişafının psixoloji problemlərini, təşəkkülünü, ümumi psixoloji qanunauyğunluqlarını, hər yaş mərhələsində nə kimi spesifik cəhətləri və yeni xüsusiyyətlər kəsb etməsini aşkar etmək və bu əsasda valideyn və tərbiyəçilərə kömək etmək baxımından da, əhəmiyyətlidir.

Qeyd edək ki, müasir dövürdə sürətli inkişaf və cəmiyyətin dinamikliyi fonunda çevik və müstəqil düşünməyi bacaran şəxsiyyətin formalaşdırılması zamanı mühüm tələblərindən biridir. Bu baxımdan təhsil sistemində bu məsələlərin nəzərə alınmasıvə çevik təfəkkürə malik şəxsiyyətin formalaşdırılması zəruridir.

Digər tərəfdən, məktəbəqədər yaş dövründən başlayaraq uşaqları intelektual cəhətdən həyata hazırlamaq siyasi, iqtisadi, ideoloji, mənəvi, psixoloji baxımdan da əhəmiyyətlidir. Əgər hər hansı bir siyasətçi, pedaqoq, başçı, tərbiyəçi, ağıllı, səriştəli, düşünülmüş hərəkət etməsə onun idarə etdiyi sahədə də müvəfəqiyyət əldə etmək mümkünsüzdür. Ona görə də məktəbəqədər yaşlı uşaqlar ilk vaxtlardan intelektual, bacarıq və vərdişlərə yiyələnməlidirlər. Məkətəbəqədər yaşlı uşaqların təlim - tərbiyəsində də əqli keyfiyyətlər özünəməxsus əhəmiyyət kəsb edir. Təhlil, tərkib, ümumiləşdirmə, müqayisə, mücərrədləşdirmə, çevik əqli düşüncə, hadisələrə düzgün, məntiqi reaksiya vermək, təlim üçün vacib sayılan psixoloji məqamlardır. Bunlarsız məkətəbəqədər yaşlı uşaqların təlim fəaliyyətini düzgün qurmaq, istənilən nəticəni almaq mümkünsüzdür.

Məktəbəqədər yaşlı uşaqlarda əqli, keyfiyyətlərin inkişafı problemi tarixən ulu əcdadlarımızın, tarixi şəxsiyyətlərin, pedaqoq və psixoloqların diqqətini cəlb etmiş və bu sahədə müəyyən tədqiqatların əmələ gəlməsinə səbəb olmuşdur. (L.S.Viqotski, A.V.Zaparojets, E.İ.Zeyliqer, V.İ.Loqinov, N.M.Poddyakov, A.L.Venqner və başqaları). Onlar qeyd edirlər ki, məhz

məktəbəqədər yaşda təsəvvürlərin və yaddaşın fundamenti qoyulur, hansı ki, bu, uşağın uğurlu əqli inkişafını təmin edir. Məktəbəqədər yaş dövrü mərhələsi ümumiləşdirmə, nəticə çıxarmaq, abstraksiyanın başlanğıc formasının yaranmasında mühüm rol oynayır. Uşaq həyatının ilk 6 ili təkcə elmi biliklərin, faktların, ümumiləşdirmələr aparmağın sadəcə aşkarlanması mərhələsi deyil, həm də başa düşülməsi, dərk edilməsi üçün mühüm mərhələdir (L.S.Vıqotski, E.İ.Zeyliqer, O.Şerbo).

Pedaqoq və psxioloqlar hesab edirlər ki, məhz məktəbəqədər yaş dövründə uşağın əqli inkişafı intensiv surətdə davam edir. Bu dövrdə uşaqlar tək-tək biliklər haqqında ayrı-ayrılıqda deyil, sadə məlumatlar haqqında belə sistemli bilik əldə edir, sadə lakin mühüm münasibət və asılılıqları müəyyən edən və onlar arasında əlaqələri tapa bilirlər (K.D.Uşinski, U.P.Usova, E.İ.Tixeyeva, A.M.Leuşina).

Ümumiyyətlə isə psixologiya tarixində əqli keyfiyyətlər önəmli bir elmi problem kimi XX yüzillikdə dərk edilmişdir. Bu tarixin ilk maraqlı səhifələri məhz A.Bine, E.Klapered, J.Piaje, V.Ştern kimi məşhur psixoloqların əli ilə yazılmışdır. Onların tədqiqatlarında ağlın iki mühüm keyfiyyətinin – tənqidilik və müstəqilliyinin eksperimental yönümdə öyrənilməsi xüsusilə əlamətdardır. Lakin 30-40-cı illərdə əqli keyfiyyətlər problemi psixologiyada sistemli şəkildə araşdırılmadı. Bir müddət durğunluq dövrü yaşadıqdan sonra artıq 60-cı illərin əvvəllərində bilavasitə bu problemə həsr olunmuş müxtəlif əsərlər (M.F.Morozov, A.İ.Lipkina, S.F.Juykob, Z.İ.Kalmıkova, N.M.Stadnenko və b.) nəşr edildi.

XX əsr və müasir dövrdə Azərbaycan psixoloji fikir tarixində də bu sahəyə ciddi fikir verilmiş və elmi kütləvi əsərlər, monoqrafiyalar, dissertasiyalar, dərslik və metodik vəsaitlər yazılmışdır. M.C.Məhərrəmov, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, V.R.Əliyeva, Ə.Ə.Qədirov, V.C.Əliyev və başqalarının əsərlərini misal göstərmək olar. Bu sahədə ən çox fəaliyyət göstərən professor Ə.Bayramov olmuşdur.

**Tədqiqatın obyekti.** Məktəbəqədər yaşlı uşaqların əqli keyfiyyətləridir.

**Tədqiqatın predmeti.** Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin inkişaf xüsusiyyətlərinin psixoloji təhlili.

**Tədqiqatın məqsəd və vəzifələri.** Məktəbəqədər yaş dövründə uşaqlarda əqli keyfiyyətlərin formalaşmasının psixoloji xüsusiyyətlərini öyrənmək, onun inkişafına təsir göstərən amilləri araşdırmaqdır.

Tədqiqatın məqsədini həyata keçirmək üçün aşağıdakı vəzifələrin həlli vacib hesab edilmişdir:

1. Əqli keyfiyyətlərinin psixoloji fikir tarixində tədqiqini öyrənmək;
2. Əqli keyfiyyətlərin, təzahür xüsusiyyətlərini, formalaşması dinamikasını araşdırmaq;
3. Əqli keyfiyyətlərin inkişafına təsir göstərən pedaqoji və psixoloji amillərini aydınlaşdırmaq;
4. Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin formalaşmasının yol və vasitələrini göstərmək.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı psixologiyanın nəzəri təhlil metodundan, habelə müşahidə, müsahibə, eksperiment, test və digər metodlardan geniş istifadə olunmuşdur. Tədqiqat işində "Ümumi anlayışların aşkar olunması", "Burada artıq hansıdır", "Kimə nə çatmır?", "Uyğunsuzluqların tapılması" metodikalarından istifadə edilmişdir

**Tədqiqatın fərziyyəsi.** Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin formalaşması uşağın fərdi psixoloji xüsusiyyətlərindən, təlim üsullarından, pedaqoji işin düzgün təşkilindən, materialın məzmunundan, məntiqi quruluşundan və uşağın onu necə və hansı qaydalarla mənimsəməsindən asılıdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Əqli keyfiyyətlər etnopsixoloji, fizioloji, sosial-mənəvi xarakterə malik olub, uşaq şəxsiyyətinin inkişafının nüvəsini təşkil edir. Əqli keyfiyyətlər (müstəqillik, tənqidilik, çeviklik, məntiqilik və s.) uşaq psixologiyasında həmişə şölə

saçan, sönməz, daim bu inkişafa təkan verən bir prosesdir. Ona görə də bu baxımdan da əqli keyfiyyətlərin kiçik yaşlardan formalaşdırılması əsas hədəflərdən biri olmalıdır.

- Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin formalaşması bir istiqamətli deyilл, artan və yaazaln xətlər üzrə gedərək, təfəkkürün tərkib elementlərinin konkret təzahüründən aslıdır.
- Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin formalaşması birdən birə deyil tədrici xarakter daşımaqla ayrı-ayrı psixi proseslərin inkişaf fonunda daha da güclənir.
- Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin psixoloji əsaslarının, təşəkkülü və formalaşmasının hər yaş dövründə nə kimi yeni xüsusiyyətlər kəsb etməsini və digər məsələləri müəyyənləşdirmək, onları müəllimlərin, valideynlərin, bütövlükdə ictimaiyyətə çatdırmaq məktəbəqədər təhsilin inkişafına verilən tələblər baxımından da əhəmiyyətlidir.

**Tədqiqatın elmi yeniliyi.** Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərini xarakterizə edən faktiki məlumatlar toplanmış və sistemləşdirilmişdir. Bununla yanaşı bu tədqiqat işində

- Məktəbəqədər yaşlı uşaqların əqli keyfiyyətlərinin inkişaf səviyyələrinin keyfiyyət və kəmiyyət xüsusiyyətlərinin meyarları müəyyən edilmişdir;
- Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərinin formalaşması üçün psixoloji-pedaqoji yol və vasitələr göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin inkişafının psixoloji xüsusiyyətlərinin tədqiqi zənnimizcə bütövlükdə təfəkkür problemi üzrə gələcək tədqiqatlar üçün nəzəri mənbə kimi də əhəmiyyətlidir. Tədqiqat zamanı əldə edilmiş elmi nəticələrdən, əqli inkişaf prosesində istifadə olunmuş məsələlərdən nəzəri və təcrübi təkliflərdən, istifadə olunan yol və vasitələrdən pedaqoqlar, psixoloqlar, valideynlər, tələbələr və magistrlar öz elmi işlərində geniş istifadə edə bilərlər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** İxtisas kafedralarında aparılmış müzakirələrdə bu tədqiqatın gedişinə dair əsaslı məlumat verilmiş və həmçinin müvafiq elmi konfranslarda əldə olunmuş nəticələr müzakirə olunmuşdur. Tədqiqatın əsas məzmunu ilə əlaqədar bir neçə məqalə və tezislər nəşr olunmuşdur..

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.**
Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil (8 yarımfəsil), nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Giriş 6 (11000), I fəsil 51 (92703), II fəsil 46 (72627), III fəsil 19 (30946), nəticə 4 (7427), istifadə edilmiş ədəbiyyat siyahısı 12 (16457) səhifədən, ümumilikdə dissertasiya işi 251165 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Giriş hissədə ənənəvi olaraq tədqiqatın aktuallığı əsaslandırılmış, vəzifələri, məqsədi, elmi fərziyyələri, nəzəri-praktik əhəmiyyəti şərh olunmuş, bir sıra elmi müddəalar irəli sürülmüşdür.

**"Problemin nəzəri-tarixi məsələləri"** adlanan birinci fəsil dörd yarımfəsildən ibarətdir. "**Tədqiqatın mahiyyəti və psixoloji ədəbiyyatda qoyuluşu**" adlı birinci yarımfəsildə tədqiqatın əhəmiyyəti faktiki misallarla şərh olunur. XIX əsrin sonu və XX əsrin əvvəllərində bu istiqamətdə aparılan tədqiqatlara nəzər salınır. M.Mustafayeva, M.İsmayılova, L.Əmrahlı və digər psixoloqların dərsliklərinə diqqət yönəldilir. Məktəbəqədər yaşlı uşaqların bir şəxsiyyət kimi formalaşmasında əqli keyfiyyətlərin yeri və mövqeyi açıqlanır. Bu istiqamətdə dünya miqyasında aparılan tədqiqatlara və eyni zamanda bu sahədə böyük bir psixoloji məktəbin yaradıcısı professor Ə.S.Bayramovun tədqiqatlarına müraciət edilir.

“**Əqli keyfiyyətlərin psixoloji təhlili**” ikinci yarım fəsildə təfəkkürün keyfiyyətləri (ağlın müstəqilliyi, tənqidiliyi, çevikliyi, dərinliyi, məntiqiliyi sürəti və s) təhlil olunur, yeri gəldikcə onların mahiyyəti konkret faktlarla açıqlanır.

Dissertasiyanın “**Əqli keyfiyyətlər haqqında nəzəriyyələr”** adlanan I fəslin üçüncü yarımfəslində müxtəlif dövrlərdə təfəkkür keyfiyyətlərinin tədqiqi ilə bağlı irəli sürülən nəzəriyyələr təhlil olunur. Mövcud psixoloji ədəbiyyatın təhlilindən aydın olur ki, istər xarici ölkələrdə, istərsə də rus psixoloji ədəbiyyatında təfəkkürün müstəqilliyinin eksperimental tədqiqinə rast gəlmək çətindir. Buna görə də bu fəslildə təfəkkürün tənqidiliyinin tədqiqinə həsr edilmiş əsərlərin üzərində dayanılmışdır.

“**Tədqiqatın metodikası”** adlanan dördüncü yarımfəsildə tədqiqat zamanı istifadə olunmuş müşahidə, müsahibə, fəaliyyət məhsullarının təhlili, nəzəri-tarixi, eksperiment, test metodları haqqında məlumat verilir.

Dissertasiyanın “**Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərinin təzahür formalari və inkişaf xüsusiyyətləri”** adlanan II fəsli iki yarımfəsildən ibarətdir. “**Məktəbəqədər yaşlı uşaqlarda tənqidi təfəkkürün təzahür formaları və inkişaf xüsusiyyətləri”** adlanan II fəslin birinci yarım fəsildə əsasən tənqidi təfəkkür və onun mahiyyəti, təzahür formaları, inkişafı konkret faktlarla şərh olunur.

Əqli keyfiyyətlərindən biri də tənqidilikdir. Təfəkkürün tənqidiliyi əsasən insanın mühakiməsindəki ziddiyyətləri, məntiqsizliyi açmağa yönəlir. Məktəbəqədər yaşlı uşaqlarda tənqidi təfəkkür onun ətraf aləmdə baş verən hadisələrə intellektual münasibətini təmin edir. Bu halda uşaq ona təsir edən hadisələri qarşısına çıxan məsələləri kor-koranə deyil məntiqi düzgün anlamağa çalışır və öz tənqidi mülahizəsini də deyir.

Uşaqların əqli keyfiyyətlərinin inkişafını nəzərdən keçirdikdə insanın gözləri qarşısında böyük bir mənzərə canlanır. Burada sözün əsl mənasında kəmiyyətin keyfiyyətə keçidinə təsadüf edirik. Məktəbəqədər yaşlı uşaqlarda təfəkkürün tənqi-

diliyinin təzahür xüsusiyyətlərini, inkişaf dinamikasını müəyyənləşdirmək məqsədilə psixologiyanın mövcüd metodlarından, testlərdən, süjetli şəkillərdən, şifahi mətnlərdən, sual-cavab üsullarından istifadə olunmuşdur.

Təfəkkür və onun keyfiyyətləri anadangəlmə bir psixi proses deyildir. O həyatda, ailədə, bağçada həmyaşıdlılar və yaşlılarla ünsiyyətdə təşəkkül tapıb inkişaf edir. Uşaq dünyaya gələrkən hazır təfəkkür qabiliyyəti ilə doğulmur. Məktəbəqədər yaşlı uşaqlarda tənqidi təfəkkür sadə şəkildə olsa da iki-üç yaş arasında özünü göstərir və yaş artdıqca daha da formalaşır. Yeri gəlmişkən deməliyik ki, biz məktəbəqədər yaşlı uşaqlarda (3-6 yaş) təfəkkür keyfiyyətlərinin (tənqidilik, müstəüillilik və s.) təzahür formalarını və inkişaf xüsusiyyətlərini müəyyənləşdirmək üçün müşahidələrdən, uşaqlarla apardığımız müsahibələrdən, onların bilik və yaş səviyyələrinə uyğun sadə mətnlərdən (mətnlər tədqiqatçı tərəfindən oxunur), testlərdən, süjetli şəkillərdən istifadə etmişik.

Beləliklə demək olar ki, təfəkkürün tənqidiliyi hələ məktəbəqdər yaş dövründən özünü göstərir. Lakin hələ belə düşüncə tərzi məktəbəqədər yaşlı uşaqlarda mohkəmlənmiş xarakter daşımır. Uşaqların tənqidi təfəkkürünü inkişaf etdirmək üçün onlara təbiət və cəmiyyət haqqında dolğun məlumat verilməlidir. Onlarda həyat təcrübəsi məhdud olduğu üçün təfəkkürləri də konkret xarakter daşıyır. Ona görə də onlara verilən hər hansı bir məlumat konkret olmalıdır. Tərbiyəçi bilməlidir ki, uşaqlara ayrı-ayrı faktlar haqqında məlumat vermək, tənqidi təfəkkürün inkişafını hələ təmin etmir. Təfəkkür məqsədəyönəlmiş bir psixi proses olduğu üçün uşaqların qarşısına müəyyən konkret vəzifələr qoymalı və onun həllinə nail olmaq lazımdır. Bunun üçün uşaqların tənqidi təfəkkürünü inkişaf etdirmək üçün onların bütün psixi xüsusiyyətlərini səfərbər etmək lazımdır. Uşaqlarda tənqidi təfəkkürü inkişaf etdirmək üçün valideynlərdən tərbiyəçilərdən o qədər də ciddi əmək tələb olunmur.

Onların yaşına uyğun mətnlərdən, şəkillərdən, nağıllardan, atalar sözlərindən istifadə etmək olar.

Dissertasiyanın "**Təfəkkürün müstəqilliyi və məktəbəqədər yaşlı uşaqlarda onun təzahür formaları və inkişaf xüsusiyyətləri"** adlanan II fəslin ikinci yarımfəsilində təfəkkür müstəqilli və onun inkişaf xüsusiyyətləri şərh olunur. Təfəkkürün müstəqilliyi çox mühüm əqli keyfiyyətlərdən biridir. Müstəqillik məfhumu çox geniş olub insanın müxtəlif fəaliyyət sahələrini əhatə edir. Lüğəti mənada müstəqillik "heç bir kənar köməyin olmamasını, hər şeyi insanın söz gücünə yerinə yetirməsini bildirir". Müstəqillik uşağın bütün fəaliyyətlərində, hərəkətlərində (müstəqil yerimək, müstəqil düşünmək, müstəqil söz demək, müstəqil gəzmək, müstəqil qalxmaq və s) özünü göstərir.

Müstəqil təfəkkür ən sadə şəkildə olsa da lap körpəlik vaxtından özünü göstərir, get-gedə inkişaf edib formalaşır. Ayan 8 aylıqdır. Nənəsi onu yedizdirir. O, nənəsinin əllərini kənara itələyir və yemək butulkasını əlləri ilə tutub ağzına tərəf gətirir və müstəqil yemək istəyir. Bu hərəkətlər uşağın müstəqilliyinin sadə təzahür formalarıdır. Digər bir 3 yaşlı Abbasın hərəkətinə diqqət yetirək. Abbas "buta" özəl bağçasının orta qrupunda tərbiyə alır. O, pilləkəndə oturdu. Həyətə düşmək istəyir. Lakin pilləkən hündür olduğu üçün yıxılmağından qorxur. Abbas dərhal fikirləşir. Oturduğu və yaxud durduğu vəziyyətdə pilləkəndən düşə bilməyəcək. Müstəqil olaraq pilləkəndən düşmək üçün pilləkənə uzanır, ayaqlarını yavaş-yavaş yerə sallayıb ehmalca düşür.

Məktəbəqədər yaşlı uşaqlar gördüyü və eşitdiyi hər bir cisim və hadisəyə reaksiya verir. Onun mövcudluğu onu düşündürür, bu barədə çoxlu fikirlər irli sürür, müstəqil suallar verir. "Ağac necə yaranıb?", "torpaq nədən əmələ gəlib?", "nə üçün inəyin buynuzları var insanın yoxdu?", "suyu kim yaradıb?", "uşaqları hardan alırlar?", "heyvanları kim yaradıb?" və s bu sualları heç kəs əvvəlcədən uşaqlara demir. Ətrafdakı cisim və hadisələrə olan maraq onları belə suallar verməyə vadar

edir. Uşaqların ətraf aləm haqqında belə suallar verməsi onlarda müstəqil təfəkkürün ən sadə təzahür formalarıdır.

Məktəbəqədər yaşlı uşaqların intellektual bacarıq və vərdişlərinin formalaşmasında sualların özünəməxsus yeri var. Suallar uşaqların daxili intellektindən, əşyaları öyrənmək marağından yaranır. Təfəkkürün təşəkkül tapıb formalaşmasında sualın özünəməxsus veri var. Uşaq sualla rastlaşanda bir qayda olaraq fikirləşməyə, mühakimə yürütməyə, fikrində nəyisə götür-qoy etməyə başalyır və uşaq təfəkkürü, necə deyərlər, öz-özünə alovlanır, pərvazlanır.. sual nə zaman yaranır? Suallar uşaqların ətraf aləmə müstəqil münasibətlərinin nəticəsidir.

Təcrübələr göstərir ki, uşaq inkişaf etdikcə, yaşa dolduqca sualların sayı azalır. Bu ondan irəli gəlir ki, bəzi sualların cavabları təlim-tərbiyə prosesində, ictimai təcrübənin mənimsənilməsində aydın olur, bəzi sualların izahının mümkün olmadığı artıq ona bəlli olur. Uşaq get-gedə davranış qaydalarını öyrənir. Onlarda davranış nomaları haqqında təsəvvürlər yaranır.

Dissertasiyanın üçüncü fəsli "**Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin inkişafi ilə bağlı aparılan psixoloji eksperimentin nəticələri**" adlanır. Bu fəsil iki yarımfəsilə bölünür. "**Kiçik, orta və məktəbəhazırlıq qruplarında əqli keyfiyyətlərin inkişafı ilə bağlı aparılan psixoloji eksperimentin nəticələri**" adlı birinci yarımfəsildə məktəbəqədər yaşlı uşaqlarda tənqidi və müstəqil təfəkkürün inkişaf xüsusiyyətlərini özündə əks etdirən keyfiyyətlərin psixoloji eksperimentlərlə təhlili verilir. Düzgün elmi prinsiplərə istinad edən tədqiqat metodlarının seçilməsi və onlardan məharətlə istifadə edilməsi psixoloji tədqiqatda başlıca məsələlərdən biridir. Hər bir eksperimental tədqiqat dörd mühüm mərhələdən keçir: 1. Müşahidə vasitəsi ilə faktlar toplanır, onlar müəyyənləşdirilir. 2. Bundan sonra faktlar arasındakı münasibət və asılılığa aid müəyyən fərziyyə irəli sürülür. 3. Sözün həqiqi mənasında eksperiment qoyulur və fərziyyənin düzgünlüyü eksperiment vasitəsi ilə dəqiqləşdirilir. 4. Əldə edilmiş faktlar təhlil və izah edilir. Əlbət-

tə, mövzunun xarakteri və tələbindən asılı olaraq bu mərhələlər arasındakı nisbət dəyişə bilər. Məsələn, elə mövzular vardır ki, onların tədqiqi üçün uzun müddətli və sistematik müşahidələr əsas yer tutur. Eksperiment qoymaq nisbətən çətin olur. Məsələn, psixologiyada əqli keyfiyyətlərin tədqiqini müəyyən mənada buna misal göstərmək olar. Çünki, laborator şəraitdə təfəkkürü öyrənmək müəyyən qədər çətin olur.

Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin inkişaf xüsusiyyətlərini öyrənmək məqsədilə uşaqların yaş səviyyələrinə uyğun sadə mətnlərdən (mətnləri tərbiyəçi oxuyur), testlərdən, süjetli şəkillərdən, şifahi oxunan mətnlərdən istifadə etmişik. Tədqiqat 3-4, 4-5, 5-6 yaşlı uşaqlar üzərində aparılmışdır. Həmin yaş dövrünün tədqiqat obyekti kimi şeçilməsi təsadüfi deyildir. Tədqiqat zamanı məlum oldu ki, 3-4 yaşlı uşaqların müəyyən hissəsi, 5-6 yaşlıların isə demək olar ki, hamısı lap birinci şifahi sözlü təlimatdan sonra diqqətlərini çox asanlıqla bir obyektdən digərinə keçirməyi bacarırlar.

Şəxsiyyətin təşəkkül tapıb formalaşması məktəbəqədər yaş dövründən başlayır. Məhz buna görə də həmişə bu yaş dövrü psixoloqların diqqət mərkəzində olmuşdur.

Apardığımız eksperimentin dəqiqliyi xatirinə biz tədqiq olunan hər bir şagirdi hərtərəfli öyrənməyə çalışmışıq. Bunun üçün biz psixologiyada tətbiq olunan tətbiq olunan tədqiqat metodlarından məqsədimiz üçün müvafiq şəkildə istifadə etmişik.

Eksperiment materiallarının üzərində tədqiqat aparılan bütün uşaqlar üçün eyni dərəcədə naməlum olması nəzərdə tutulmuşdur. Əks halda uşaqlarda əqlin müstəqillik və tənqidiliyinin inkişafını həqiqi mənada aşkar emək mümkün olmazdı. Digər tərəfdən müstəqillik və tənqidiliyin ayrı-ayrı uşaqlarda inkişaf səviyyəsini müyyənləşdirməkdən ötrü materiallar uşaqların həyatına nisbətən yaxın olan sahələrdən götürülmüşdür.

Məktəbəqədər yaşlı uşaqlarda təfəkkür əyani-əməlidən konkret-obrazlıya, oradan da nisbətən mücərrəd təfəkkürə doğ-

ru inkişaf etdiyini nəzərə alaraq tədqiqat zamanı biz şəkillər üzrə eksperimentlər aparmışıq.

Əvvəldə adlarını çəkdiyimiz metodlar vasitəsilə biz məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin təzahür formalarını, inkişaf xüsusiyyətlərini, həmin keyfiyyətlərin inkişaf etdirilməsi yollarını öyrənməyə çalışmışıq. Bu məqsədlə 2014, 2015, 2016-2017 illərdə Bakının Nərimanov, Binəqədi, Bakıxanov rayonlarında "Buta" Nizami rayonunda həmin bağçanın filiallarında 300-dən artıq uşaq üzərində tədqiqat iki mərhələdə aparılmışdır. Habelə, Binəqədi rayonunun 286, Nəsimi rayonunun 266 saylı bağçalarının uşaqları da tədqiqata cəlb olunmuşdur. Birinci mərhələdə uşaqlarda təfəkkür keyfiyyətlərinin təzahür formalarını müəyyənləşdirmək üçün onlara təqdim edilən şəkillərdə (oxunan mətnlərdə) daxili mahiyyəti üzə çıxarmaq üçün təlimatdan kənara çıxmamışıq. Yəni izahedici, öyrədici üsullara müraciət etməmişik. İkinci mərhələdə öyrədici, izahedici üsuldan istifadə edib uşaqlarda təfəkkürün keyfiyyətlərini inkişaf etdirməyə yönəltmişik və bunun da səmərəsi özünü göstərmişdir.

Tədqiqatın həm birinci, həm də ikinci mərhələsində isə biz kiçik (3-4) qruplarda yalnız müstəqillik və tənqidilik sahəsində fərdi fərqlərə deyil, ümumiyyətlə, məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin inkişaf xüsusiyyətlərinə diqqət yetirmişik. Onu qeyd etmək lazımdır ki, bu mərhələdə müstəqillik və tənqidiliyin inkişaf dinamikasını müəyyənləşdirmək tədqiqatın başlıca qayəsi olmuşdur. Eksperiment zamani beş metodikadan istifadə olunmuşdur. Təbii ki, onların hamısını əhatə etmək qeyri-mümkün olduğu üçün bəzilərinin nəticələrini verməklə kifayətlənirik.

Eksperimentin birinci mərhələsi;

**Kiçik qruplarda təfəkkür müstəqilliyinin eksperimental psixoloji təhlilinin nəticələri**

**Cədvəl 1**

| Sıra | Adı, soyadı, atasının adı | Ballar | Qeydlər |
|---|---|---|---|
| 1 | Musazadə Esmanur | 10 bal | Hamısını qruplaşdırıb |
| 2 | Məmmədov Amir | 10 bal | Hamısını qruplaşdırıb |
| 3 | Abdullazadə Aliyə | 10 bal | Hamısını qruplaşdırıb |
| 4 | Babayev Cəlal | 10 bal | Hamısını qruplaşdırıb |
| 5 | Məhərrəmli Səid | 10 bal | Hamısını qruplaşdırıb |
| 6 | Məmmədov İman | 1 bal | 1-2 qruplaşdırıb |
| 7 | Məhərrəmli Süleyman | 5 bal | 2-3 qruplaşdırıb |
| 8 | Ömər Yıldırım | 1 bal | 1-2 qruplaşdırıb |
| 9 | Cəfərzadə Cəfər | 1 bal | 1-2 qruplaşdırıb |
| 10 | Məmmədov Amir | 5 bal | 2-3 qruplaşdırıb |
| 11 | Qurbanzadə Çingiz | 5 bal | 2-3 qruplaşdırıb |
| 12 | Nəbiyev Nicat | 5 bal | 2-3 qruplaşdırıb |
| 13 | Məmmədzadə Fəxrəddin | 5 bal | 2-3 qruplaşdırıb |
| 14 | Səmədzadə Telli | 0 bal | Heç birini qruplaşdırmayıb |
| 15 | Quliyeva İlayda | 0 bal | Heç birini qruplaşdırmayıb |

Eksperimentin ikinci mərhələsində, yəni öyrədici mərhələsində isə nəticələr aşağıdakı kimi olmuşdur:

**Eksperimentin ikinci mərhələsində kiçik qruplarda təfəkkür müstəqilliyinin eksperimental psixoloji təhlilinin nəticələri**

**Cədvəl 2**

| Sıra | Adı, soyadı, atasının adı | Ballar | Qeydlər |
|---|---|---|---|
| 1 | Musazadə Esmanur | 10 bal | Hamısını qruplaşdırıb |
| 2 | Məmmədov Amir | 10 bal | Hamısını qruplaşdırıb |
| 3 | Abduallazadə Aliyə | 10 bal | Hamısını qruplaşdırıb |
| 4 | Babayev Cəlal | 10 bal | Hamısını qruplaşdırıb |
| 5 | Məhərrəmli Səid | 10 bal | Hamısını qruplaşdırıb |
| 6 | Məmmədov İman | 10 bal | Hamısını qruplaşdırıb |
| 7 | Məhərrəmli Süleyman | 10 bal | Hamısını qruplaşdırıb |
| 8 | Ömər Yıldırım | 8 bal | 1-2 birləşdirməyib |
| 9 | Cəfərzadə Cəfər | 9 bal | 1ni birləşdirməyib |
| 10 | Məmmədov Amir | 7 bal | 2-3 birləşdirməyib |
| 11 | Qurbanzadə Çingiz | 8 bal | 3-4 birləşdirməyib |
| 12 | Nəbiyev Nicat | 8 bal | 3-4 birləşdirməyib |
| 13 | Məmmədzadə Fəxrəddin | 10 bal | Hamısını qruplaşdırıb |
| 14 | Səmədzadə Telli | 10 bal | Hamısını qruplaşdırıb |
| 15 | Quliyeva İlayda | 10 bal | Hamısını qruplaşdırıb |

Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyytlərin inkişaf xüsusiyyətlərini müəyyənləşdirmək üçün digər metodikalardan da istifadə olunmuşdur.

Orta qrup (4-5) üçün olan materialda (əlavə-2) qələm-kağız, tennis raketi-tennis topu, qıfıl-açar, diş fırçası- diş pastası, çəkic-mismar, mişar-odun şəkilləri qruplaşdırılmalıdır. Bu qrupdakı tədqiqat zamanı diqqətimizi cəlb edən bəzi məsələlər oldu. Məsələn, uşaqlardan Riad çəkic və mişarın arasında xətt çəkərək onları birləşdirdi və həmin xəttin ortasından oduna doğru xətt çəkdi. Bu, hardasa eyni yaş qrupundakı uşaqlar arasında fərdi fərqlərin aşkar nümunəsidir. Digər bir uşaq Aydan çəkici birləşdirərkən iki variant arasında qaldı. Oduna birləşdirdi, sonra yenə mismara birləşdirdi. Mişarı da oduna birləşdirdi. Uşaqlardan Murad isə şəkillərdən 3 cütünü qruplaşdırmamışdı.

### Orta qrupda uyğunlaşdırma metodikasının nəticələri

**Cədvəl 3**

| Sıra | Adı, soyadı, atasının adı | Ballar | Qeydlər |
|---|---|---|---|
| 1 | Bağırzadə Riad | 10 bal | Hamısını yerinə yetirib |
| 2 | Sevdiməliyeva Sirac | 10 bal | Hamısını qruplaşdırıb |
| 3 | Tatlıyeva Aysel | 10 bal | Hamısını qruplaşdırıb |
| 4 | Həşimov Murad | 5 bal | 3-nü qruplaşdırmayıb |
| 5 | Hüseynova Məryəm | 10 bal | Hamısını qruplaşdırıb |
| 6 | Musazadə Aydan | 5 bal | İki variant arasında qaldı |
| 7 | İsmayılzadə İsmayıl | 3 bal | 1-2-sini qruplaşdırıb |
| 8 | Cəfərzadə Kənan | 3 bal | 2-sini qruplaşdırıb |
| 9 | Rzayeva Nuray | 10 bal | Hamısını qruplaşdırıb |
| 10 | Sarıyev Vüsal | 0 bal | Heç birini qruplaşdırmayıb |
| 11 | Cəbrayılova Fidan | 0 bal | Heç birini qruplaşdırmayıb |
| 12 | Sadıqova Fərəh | 0 bal | Heç birini qruplaşdırmayıb |
| 13 | Əliyev Faiq | 2 bal | 1-ni qruplaşdırıb |
| 14 | Əliyev Bəylər | 3 bal | 2-sini qruplaşdırıb |

Eksperimentin ikinci mərhələsində, yəni öyrədici mərhələsində isə nəticələr aşağıdakı kimi olmuşdur:

**Eksperimentin ikinci mərhələsində Orta qrupda uyğunlaşdırma metodikasının nəticələri**

**Cədvəl 4**

| Sıra | Adı, soyadı, atasının adı | Ballar | Qeydlər |
|---|---|---|---|
| 1 | Bağırzadə Riad | 10 bal | Hamısını yerinə yetirib |
| 2 | Sevdiməliyeva Sirac | 10 bal | Hamısını qruplaşdırıb |
| 3 | Tatlıyeva Aysel | 10 bal | Hamısını qruplaşdırıb |
| 4 | Həşimov Murad | 5 bal | 3-nü qruplaşdırmayıb |
| 5 | Hüseynova Məryəm | 10 bal | Hamısını qruplaşdırıb |
| 6 | Musazadə Aydan | 10 bal | Hamısını qruplaşdırıb |
| 7 | İsmayılzadə İsmayıl | 10 bal | Hamısını qruplaşdırıb |
| 8 | Cəfəzadə Kənan | 8 bal | 3-4 qruplaşdırıb |
| 9 | Rzayeva Nuray | 9 bal | 1-ni qruplaşdırmayıb |
| 10 | Sarıyev Vüsal | 7 bal | 2-3 birləşdirb |
| 11 | Cəbrayılova Fidan | 8 bal | 3-4 birləşdirib |
| 12 | Sadıqova Fərəh | 8 bal | 3-4 birləşdirib |
| 13 | Əliyev Faiq | 10 bal | Hamısını qruplaşdırıb |
| 14 | Əliyev Bəylər | 10 bal | Hamısını qruplaşdırıb |

Bu bir daha onu göstərir ki, məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin inkişafın da qayğısına qalan tərbiyəçi, valideyn onların daima məntiqi düşüncəyə yönələn tapşırıqlar verilməli və uşaqların intellektul inkişafının qayğısına qalmalıdırlar. Məktəbəhazırlıq qruplarında uşaqlarda təfəkkür müstəqilliyini müəyyənləşdirmək məqsədilə digər material (əlavə 3a) verdik. Burada hörümçək, quş yuvası, dovşan, banan, yağış, meymun, hörümçək toru, çətirli qız, yerkökü təsvir olunur. Uşaqlar bu canlıları da əşyalara uyğun olaraq qruplaşdırmalıdırlar. Burada da uşaqlardan Şahin quşu həm quş yuvasına, həmdə kökə birləşdirib. Bunu da quşun yerkökü də yeyəbiləcəyini düşünərək etmişdir. Ravil isə hörümçəyi quş yuvasına birləşdirmişdi. O, isə bunu izah edərkən demişdir: “hörümçək burada yaşayır”. Uşaqların bu cür mühakimələri hələ bizdə tam təsəvvür yaratmadığı üçün ikinci metodikanı da tətbiq etdik.

**Məktəbəhazırlıq qrupunda uşaqların təfəkkür müstəqilliyinin öyrənilməsi ilə bağlı aparılan psixoloji eksperimentin nəticələri**

**Cədvəl 5**

| Sıra | Adı, soyadı, atasının adı | Ballar | Qeydlər |
|---|---|---|---|
| 1 | Ağazadə Zeyşan | 10 bal | |
| 2 | Qasımlı Leyla | 10 bal | |
| 3 | Qasımov Yusif | 10 bal | |
| 4 | Abdurrəhimli Ayla | 10 bal | |
| 5 | Muxtarlı Ayxan | 10 bal | |
| 6 | Yaqubov Ayxan | 10 bal | |
| 7 | Ağayev Fərhad | 10 bal | |
| 8 | Cabbarlı Şahin | 10 bal | Quşu həm quş yuvasına, həmdə kökə birləşdirib |
| 9 | Hüseynli Hüseyn | 10 bal | |
| 10 | Abdullazadə Vüsal | 10 bal | |
| 11 | Əkbərov Səid | 10 bal | |
| 12 | Aşuqov Ravil | 10 bal | Hörümçəyi quş yuvasına da birləşdirib |
| 13 | Səmədzadə Rza | 10 bal | |
| 14 | Əhmədov İbrahim | 10 bal | |
| 15 | Məmmədov İslam | 10 bal | |
| 16 | Yolçuyeva İşıl | 10 bal | |
| 17 | Nəbiyev Nicat | 10 bal | |

Məktəbə hazırlıq qrupunda. "Əşyaların qruplaşdırılması" (əlavə-4) metodikası vasitəsilə məktəbəhazırlıq qrupunda uşaqlarda müstəqilliyi, ümumiləşdirmə aparmaq bacarığının səviyyəsini öyrənməyə çalışdıq. Məktəbəqədər yaşlı uşaqların müstəqil təfəkkür xüsusiyyətlərini, onların təzahür formalarını öyrənmək məqsədilə əşyaların qruplaşdırılmasına aid (əlavə-4) testdən istifadə etdik. Testdə üzüm, armud, gilas, tort, portağal, çiyələk, banan, alma). Təlimata uyğun olaraq uşaqlar meyvələri xüsusiyyətlərinə görə qruplaşdıra bildilər ( üzüm, armud, gilas, alma, portağal, çiyələk). Həmçinin metodika uşaqların analiz-sintez bacarığını öyrənməyə imkan verir. O, qarşısına qoyulmuş şəkillərdən eynicinsli əşyaları seçib qruplaşdırmalı, həmin

qrupa uyğun gəlməyən artıq əşyanı isə təcrid etməlidir. Əşyaların təsnifatı diqqətin iş qabiliyyətini və davamlılığını əks etdirir. Təcrid etmə məntiqi əsaslandırmaya, düzgün ümumiləşdirməyə, ciddi və aydın nəticə əldə etməyə imkan verir.

Nəticələrin qiymətləndirilməsi: 10 bal - uşaq bütün şəkillərə baxib ümumi məzmunu anlayır və kənar əşyanı ayırd edir. Bunun üçün 1dəqiqə və ya daha az vaxt sərf edir; 8-9 bal – uşaq 1 dəqiqə və ya 1.5 dəqiqə ərzində tapşırığı anlayaraq yerinə yetirir; 6-7 bal – uşaq 1.5-2 dəqiqə ərzində tapşırığın öhdəsindən gələ bilir; 4-5 bal – uşaq 2-2.5 dəqiqə ərzində tapşırığı həll edir; 2-3 bal – uşaq 2.5-3 dəqiqə ərzində tapşırığı həll edir; 0-1 bal – uşaq 3 dəqiqədə çox vaxt sərf edərək tapşırığı həll edir və ya tapşırığı icra edə bilmir.

İnkişaf səviyyəsi haqqında nəticələr: 10 bal – çox yüksək, 8-9 bal – yüksək, 4-7 bal –orta, 2-3 bal – aşağı, 0-1 bal – çox aşağı.

Bu qrup üçün olan materialda üzüm, armud, gilas, alma, banan, çiyələk və portağal meyvələr adı altında qruplaşdırılmalı, tort isə şəkildə artıq kimi qeyd olunmalıdır (əlavə-4) Nəticədə uşaq 14 uşaqdan 9-u, yəni yarısından çoxu yüksək, 5 nəfər isə çox yüksək səviyyədə tapşırığı icra etmişdir.

Üçüncü fəslin ikinci yarımfəslində "**Ailədə məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin inkişaf etdirilməsi ilə bağlı aparılan eksperimental tədqiqatlar**"ın təhlili öz əksini tapır. Təfəkkür anadangəlmə bir prosesdir. Uşaq anadan olandan tam formalaşmış şəxsiyyətə çevrilənə qədər keçdiyi müddət ərzində ona əsas tərbiyə verən ailəsidir. "Ailə uşağın şəxsiyyətinin formalaşmasına, eləcə də əqli inkişafına fəal təsir göstərən ilkin sosial qrupdur. Uşaq həyatının çox hissəsini ailədə keçirdiyi üçün onun ilk əqli fikirləri və ilk həyatı baxışları ailədə formalaşır. Məhz ailədə gələcək şəxsiyyətin formalaşması üçün ilk addımlar atılır".

Uşaqların formalaşmasında ailənin rolu son dərəcə misilsizdir. Ailədə uşaq lap kiçik yaşlarından müstəqil təfəkkür, tənqidi düşüncə tərzinə yiyələnir, onda bir sıra intellektual bacarıq və vər-

dişlər yaranır. Təcrübə göstərir ki, uşaqların intellektual inkişafında ailə tiplərinin özünəməxsus yeri var. Elə ailələr var ki, orada mütəmadi olaraq uşaqların intellektual inkişafına fikir verilir.

Valideyinlər uşaqlara onların yaşına müvafiq tələblər verməli, nəinki həmin tələblərə əməl olunmasına diqqət yetirməli, həm də onlara müstəqillik verməli, ailə problemlərinin müzakirəsinə cəlb etməli, uşaqları narahat edən məsələləri onlarla birlikdə müzakirə etməlidir. Valideynlər bu yolla uşaqlarda iradə və xarakterin inkişafı, məsuliyyət hissinin formalaşması üçün şərait yaradır, öz övladlanna əmək adətləri aşılayırlar. Uşaq kiçik yaşlarından ağıllı olmalı, müstəqil fikir yürütməyi bacarmalıdır. O başqa uşaqların fikirlərini davam edərək tutuquşuya çevrilməməlidir. Bu keyfiyyətlər isə ailədə inkişaf etməlidir.

Ailədə uşaqlarla intellektual bacarıqların inkişafı ilə bağlı sual-cavab, müsahibələr, məktəbəqədər yaşlı uşaqlar üçün çox maraqlı olur. Uşaqlarla bir neçə dəfə bu barədə aparılan müsahibələr onlarda vərdiş yaradır. Artıq uşaqlar evdə atanı, babanı narahat edir və bu barədə suallar verilməsini tələb edir. Budur Hüseyn evə yorğun gələn babasına deyir: - baba, yemək ye sonra sual-cavaba başlıyaq. Baba yemək yeyəndən sonra aşağıdakı müsahibəni aparır. 6 yaşlı Abbasa deyir: - oğlum, mən keçən il kəndə getmişdim. Kəndimizin yaxınlığındakı meşəyə atımla getmişdim. Evə qayidarkən bir dovşan qabağımı kəsib məni atdan saldı, atı yedi. Mən isə evə piyada getməli oldum. Abbas bir az fikirləşərək dedi: inanmağım gəlmir, dovşan axı balacadır, qorxaqdır, o atı yeyə bilməz. Baba isə ona cavab verir: - düzdür, mənim ağıllı nəvəm, mən sənin ağlını yoxlamaq istəyirdim, sən isə aldanmadın. Belə misalların sayını xeyli artırmaq olar. Məsələ sualların sayını artırmaq deyil, valideynlərin diqqətini, uşaqların intellektini inkişaf etdirən belə materiallara yönəltməkdir. Bu istiqamətdə bir eksperimentin nəticələrinə diqqət yetirək: "Ümumi anlayışların aşkar olunması". Metodikası əsasında məktəbəqədər yaşlı uşaqlarla (5-6) ailədə aparılan bir eksperiment uşaqların intellektual inkişafın-

da ailənin oynadığı rolu bir daha sübut edir. Ailədə iki uşaq var. (5 yaşlı Gülay, 6 yaşlı Xanım) babası onları çox sevir. Onlar ağıllı uşaqlardır. Babası onlara 20 söz sırası təqdim edir. Hər dörd sıralar arasında iki əlaqəli söz vardır. Uşaqlar həmin əlaqəli sözləri şifahi olaraq deməli, baba isə onları qeyd etməlidir. Sözlər bunlardır:

1. Bağ (bitki, bağban, it, darvaza, torpaq)
2. Çay (sahil, balıq, balıqçı, lehim su)
3. Şəhər (avtomabil, küçə, bina, velosiped)
4. Saray (samanlıq, at, dam, mal-qara, divar)
5. Futbol (top, futbolçu, ot, şəhər, rəqib)
6. Bağça (tərbiyəçi, uşaqlar, valideynlər, qaçmaq, küsmək)
7. Oxumaq (başlıq, kitab, çanta, rəsm, söz)
8. Ailə (uşaq, valideyn, pişik, ot, radio)
9. Qəzet (redaktor, həqiqət, əlavə, teleqram, kağız)
10. Oyun (kartlar, oyuncaqlar, cərimələr, cəza, qayda)
11. Müharibə (təyyarə, top, döyüş, silah, əsgər)
12. Kitab (şəkil, müharibə, kağız, məhəbbət, mətn)
13. Nəğmə oxumaq (zəng səsi, incəsənət, səs, alqış, melodiya)
14. Zəlzələ (yarğan, ölüm, torpaq sürüşməsi, səs küy, leysan)
15. Kitabxana (şəhər, kitab, məruzə, musiqi, oxucular)
16. Meşə (yarpaq, alma, ağac, ovçu, canavar)
17. İdman (medal, orkestr, yarış, qabiliyyət, stadion)
18. Xəstəxana (bina, bağça, düşmən, radio, xəstələr)
19. Məhəbbət (qızılgül, hisslər, insan, şəhər, təbiət)
20. Vətənpərvərlik (şəhər, dostlar, ana vətən, ailə, insan).

İşin yerinə yetirilməsinə 3 dəqiqə vaxt verilir. İlk sual cavabda uşaqlar demək olar ki, çox çətinliklə olsa da hər bir sırada bir-birinə uyğun olan + bir sözü deyə bildilər. Xüsusilə uşaqlar çay, saray, qəzet, idman sıralarındakı əlaqəli sözləri çətinliklə deyirlər. Lakin babanın ikinci təlimatında (uşaqlar bir də baxın, bir-birinə yaxın olan sözləri seçin. Məsələn, bağ sözü sırasında bağa aid sözlərə baxın. Bağda nə olmalıdır? Uşaqlar:

- bitki, daha ən vacib nə olmalıdı? Bitki harda bitir? Uşaqlar: - torpaqda.

Bəli, deyə baba onların fikrini tamamlayır. Babanın ikinci təlimatından sonra uşaqlar demək olar ki, tapşırığın öhdəsindən gəldilər. Təbii ki, belə tapşırıqların öhdəsindən gəldilər. Təbii ki, belə tapşırıqlar, müsahibələr uşaqlarda əqli keyfiyyətlərin inkişafına kömək edir.

Beləiklə uşaqlar bu yolla bir çox məfhumlarla tanış olur, onların xüsusiyyətlərini öyrənir, həm də müstəqil olaraq ümumiləşdirmələr aparmaq bacarığına yiyələnir.

Apardığımız tədqiqat aşağıdakı nəticəyə gəlməyə imkan verir:

- Məktəbəqədər yaşlı uşaqlarda tənqidi təfəkkürü inkişaf etdirmək üçün ümumi xarakterli mətnlərdən, testlərdən istifadə etmək effektli olur. Burada konkret təlimat yəni şəkil və mətnləri, uyğunsuzluqları, səhvləri üzə çıxramağa təhrik edən suallardan, testlərdən istifadə etməsi daha yaxşı fayda verə bilər.
- Orta və böyük qruplarda olan uşaqlarda tənqidi və müstəqil təfəkkür özünü göstərsə də onlar öz tənqidi və müstəqil düşüncələrini ifadə etməkdə çətinlik çəkirlər. İkinci, yönəldici təlimatdan sonra isə asanlıqla işin öhdəsindən gəlir və gələcək ekperimentlərdə fəal iştirak edirlər. Tədqiqat göstərdi ki, müstəqil təfəkkür tənqidi təfəkkürə nisbətən daha geniş təzahür formalarına malikdir.
- Təcrübə göstərdi ki, məktəbəqədər yaşlı uşaqların bəziləri təkcə hadisələrin, şəkillərin zahiri uyğunluqları ilə kifayətlənmir, azca yardımçı sualların köməyilə onlar təqdim olunan obyektlərə fikirlərini ölçüb-biçərək yanaşırlar, orada sadalananlara uyğun cavab verirlər. Bu da onlarda əqli keyfiyyətlərin inkişafını az da olsa təmin edir.
- Məktəbəqədər yaşlı uşaqlarda tənqidi və müstəqil təfəkkürü inkişaf etdirmək üçün onların bilik, yaş səviyyələrinə uyğun şəkil və mətnlər seçilməlidir.

- Uşaqları yeri gəldikcə tənqidi və müstəqil təfəkkürə aid misallar gətirmələrinə nail olmaq lazımdır. Həmişə uşaqları müstəqil danışmağa hekayə və nağıllara əlavə etməyə vərdiş etdirmək məsləhətdir. Şəkilləri, mətnləri gizli mənaları açmağa sövq etmək faydalı olar. Çalışmaq lazımdır ki, uşaqlar hər zaman ən adi müsahibədə də, eksperimentdə də özləri müəyyən bir nəticə çıxarsınlar. Uşaqlara şəkillərlə yanaşı onların bilik səviyyəsinə uyğun mənası gizli olan, yalnız müəyyən düşüncə, mühakimə nəticəsində açıla bilən materiallar təqdim etmək daha yaxşı olar.
- Təfəkkürün müstəqillik və tənqidiliyinə görə məktəbəqədər yaşlı uşaqların arasında ciddi fərqlər vardır.

Bunları valideynlər və tərbiyəçilər nəzərə almalıdırlar.

- Məktəbəqədər yaşlı uşaqlarda (3-6 yaş) müstəqil düşünmək, gördüklərinə, eşitdiklərinə, yaşıdlarının, yaşlıların fikirlərinə müstəqil yanaşmaq tərzi tənqidi təfəkkürə nisbətən xeyli genişdir. Bu da ondan irəli gəlir ki, onlar gördüklərinə heyrətlə baxır, onların necə?, nə üçün? əmələ gəldikləri ilə çox maraqlanırlar. Müstəqil fikir yürütmək təbii ki, hadisələrin mahiyyətini araşdırmaqdan çətindir. Suyun, torpağın, çörəyin, ağacın, adamın, heyvanların, quşların haradan yarandığı sualı uşaqlarda həmin canlı və cansız varlıqları konkret olaraq gördükləri nəticəsində yaranır.
- Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin inkişafında ailənin özünəməxsus rolu vardır. Hələ lap körpə vaxtlarından uşaqlara müstəqil düşünmək, verilən materiallara, deyilən sözlərə tənqidi yanaşmaq bacarığı aşılanmalı və bu istiqamətdə işlər mütəmadi olaraq ailədə aparılmalıdır. Valideynlər müxtəlif testlərdən, məntiqi düşüncə tələb edən materiallardan, tapşırıqlardan, atalar sözlərindən, nağıllardan istifadə etməklə uşaqlarda bu sahəyə maraq formalaşdırmalıdırlar.
- Məktəbəqədər yaşlı uşaqlarda tənqidi təfəkkürə nisbətən müstəqil təfəkkür daha geniş formada təzahür edir. Bu da

uşaqların ətraf aləmdə ilk dəfə tanış olduqları hadisələrə maraqla bilavasitə əlaqədardır.

- Tənqidi, müstəqil və digər əqli keyfiyyətlərin inkişafı uşaqların fitri, etnik, filogenetik, ontogenetik xüsusiyyətləri ilə bilavasitə əlaqədardır.
- Bir məsələni xüsusilə qeyd etmək lazımdır. Hələ vaxtı ilə Aristotel funksiyalararası əlaqələr nəzəriyyəsində qeyd edirdi ki, bütün psixi xüsusiyyətlər bir-birilə əlaqədardır və o əlaqələr onların inkişafında əhəmiyyətli dərəcədə rol oynayırlar. Bax bu hal tədqiqatlarda da özünü göstərdi. Tədqiqatlar, testlərin təhlili göstərdi ki, məktəbəqədər yaşlı uşaqlarda həmin testlərin köməyi ilə cisim və hadisələr arasında oxşar və fərqli cəhətləri, eyni zamanda uyğunluqları öyrənir, ilin fəsilləri (əlavə 3a) cəmiyyətdə olan cisimləri, hadisələri mahiyyətcəsinə qruplaşdırmaq, intellektual vərdişlərini formalaşdırmaq daha asan olur.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Məktəbəqədər yaşlı uşaqlarda təfəkkür keyfiyyətlərinin formalaşdırılmasında atalar sözlərinin rolu // BSU-nun Elmi əsərlər №1, Bakı: 2015, s.109-116
2. Məktəbəqədər yaşlı uşaqlarda əqli keyfiyyətlərin inkişafında ailənin rolu //ADPU-nun Pedaqoji Universitet Xəbərləri №3, Bakı: 2015, s.398-401
3. Təfəkkür keyfiyyətlərini sosial-psixoloji mahiyyəti // ADU-nun Elmi xəbərləri. №1, Bakı: 2015, s. 388-397
4. Məktəbəqədər uşaqlarda əqli keyfiyyətlərin formalaşdırılmasında milli-mənəvi dəyərlərdən istifadə imkanları/Gənc tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı. Bakı: 2015, s.1357-1358

5. Məktəbəqədər yaşlı uşaqlarda təfəkkür və onların psixoloji təhlili //ADU-nun Elmi xəbərləri №1, Bakı: 2016, s.264-273
6. Məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşmasında təfəkkür keyfiyyətlərinin rolu //AMEA Fəlsəfə İnistutu "Elmi əsərlər "Scientific works" 2017, №1 (28)", Bakı: 2017, s.117-125
7. Подходы к свойствам мышления //Казахстан-Международный научной журнал. Алмата: 2017, с.10-17
8. Təfəkkürün müstəqilliyinin inkişaf etdirilməsi yollarına dair /"Qlobal çağrışlar və perspektivlər"mövzusunda Respublika elmi praktik konfransı. Bakı: 2024, s.17-20
9. Factors affecting the formation of critical thinking in preschool children. May 7, 2024 in the Umeå (Sweden) XLIV International scientific-practical conference "Modern Aspects of Modernization of Science: Status, Problems, Development Trends" Umea: 2024, p.35-36

Dissertasiyanın müdafiəsi 28 iyun 2024-cü il tarixində saat $14^{30}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Akademik Zahid Xəlilov küçəsi 33, II tədris binası, otaq 203, e-mail: info@bsu.edu.az

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları http://bsu.edu.az/ rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 23 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 30.04.2024
Kağızın formatı: 60x84 1/16
Həcm: 38551
Tiraj:100